**_Mayis Səlim,_**
**_Şəki_**

### Tətildə

Daha məktəbə
dedik, əlvida.
Sən bizi kəndə
apar, ay ata.

Niyə şəhərdə
istidən bişək?
Haydı, cəld olun,
tez yola düşək.

Yığışdırmışıq
hər şeyimizi.
Nənəm də çoxdan
gözləyir bizi.

Kəndə çatmağa
çox tələsirəm.
Gedib görüşüm
dostlarımla mən.

Qaçım çəməndə,
mayallaq aşım.
Dərəyə enim ,
dağa dırmaşım.

Alça yeməyə
ağaca çıxım.
Meşədən moruq,
çiyələk yığım.

Gündə qaralım,
çimim çayda mən.
Yaxşı dincəlim
gərək yayda mən.

Maraqlı keçər
günlərim kənddə.
Geri dönərik
tətil bitəndə.

### Pəri

Hələ təzə
dərsə gedir,
Balacadır
bizim Pəri.
Səhər-axşam
qulluq edir,
Çox sevir o,
çiçəkləri.
Hey söyləyir
dönə-dönə:
-Tez açılın,
sizi dərim.
Ad günündə
mən nənəmə
verib, onu
sevindirim .

### At

Göz oxşayır görkəmin
Bəzəkli gəlin kimi.
Dayanmısan qarşımda
Mərdlik heykəli kimi.

Əyil, öpüm üzündən,
Tumarlayım belini.
Daraqlayım alnına
Səpələnən telini.

Vüqarlıdır baxışın,
Şahanə yerişin var.
Kişnə, lərzəyə gəlsin,
Titrəsin sal qayalar.

Al məni də tərkinə,
Dönək əsən yellərə.
Nağıllardan gəlmisən,
Qayıdaq o illərə.

Gəzək şahə qalxdığın
O doğma yaylaqları.
Birlikdə seyr eləyək
Dərələri, dağları.

Görüm, Qazan, Koroğlu
Səni minib çapanda.
Nallarının altından
Qığılcımlar qopanda.

Görüm xan Eyvazımı
Döyüşə tələsəndə.
Qabağında qorxudan
Düşmən tir-tir əsəndə.

Geyinib ağ paltarı,
Qoy atılım belinə.
Pas atmasın qınında,
Qılınc alım əlimə.

Quştək uçum göylərdə,
Qolum-qanadım ol sən.
Yetişim diləyimə
Arzum-muradım ol sən.

Haraylayıb, döyüşə
Çağırım öz ordumu.
Xilas edim yağıdan
Torpağımı, yurdumu.

### Rənglər

Mənim adımı
Bilmək istəsən,
Payız fəslini
Yadına sal sən.

Yazda otlara
Yaxşı-yaxşı bax.
Soruş, qoy desin
Adımı yarpaq.

Dostum, məni də
Xatırla hərdən,
Rəngimi aldım
Bənövşələrdən.

Qızılgüllərin
Üzündə varam,
Qızıl payızda
Yetişən naram.

Bütün rənglərin
Kimdir qəşəngi?
Mənəm səadət,
Xoşbəxtlik rəngi.

Məni axtaran
Tapar göylərdə.
Rəngini məndən
Alıb Xəzər də.

Bunlar rənglərin
Hamısı deyil.
Dostum, sən bizi
Yaxşı tanı, bil.

Bizi görərsən
Baxsan hər yana,
Bizik yaraşıq
Verən cahana.

### Günel deyir

Səhərlər tezdən
Oyanıram mən.
Yuyunub hazır
Dayanıram mən.

Hər gün atamla
Dərsə gedirəm.
Evdə anama
Kömək edirəm.

Çirkli olmur heç
Əllərim, üzüm
Ütüləyirəm
Donumu özüm.

Çoxlu tapmaca,
Nağıl bilirəm.
Bunları mənə
Öyrədib nənəm.

Layla deyirəm
Bacım Aytənə.
Hamı "Afərin"
Söyləyir mənə.

### Sarı

Bu, Sarıdı,
Bizim itdi.
Hürüb qaçdı,
Gözdən itdi.

Ha boylandım
Yola sarı,
Hara getdi
Görən, Sarı?

Ürəyimə
Qüssə doldu.
Qəhərləndim,
Gözüm doldu.

Daha məndə
Yoxdu dözüm,
Mən Sarısız
Necə dözüm?

Yəqin gəzir
Dağı, düzü.
Darıxıram
Onsuz, düzü.

Aha, budur,
Gəldi Sarı.
Tez yüyürdüm
Ona sarı.

Nə yaxşı ki,
Evə döndü.
Ürəyim lap
Dağa döndü.

### Bacılar

Üç bacı var bu evdə,
Hərəsi bir çiçəkdir.
Gülərüzlü, şirindil,
Bir-birindən göyçəkdir.

Bacıların böyüyü
Bax, bu dəcəl Süsəndir.
Dəymədüşər, ərköyün,
Tez inciyib küsəndir.

İkinci qız Günaydır,
Deyir günəm, ayam mən.
Göydən ata-anama
Gələn şirin payam mən.

Totuq-motuq bu qız da
Lap balaca bacıdır.
Aytac evin-eşiyin
Bəzəyidir, tacıdır.

dal t.2017.-19 iyul.-S..4.